

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 71 (23.233)

*18 aprel 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Pillə-pillə” kitabının təqdimatı olub

***Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə nəşr olunmuş “Pillə-pillə” kitabının təqdimatı keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov tədbirdə çıxış edərək demişdir ki, sürətlə inkişaf edən muxtar respublikamızda bütün sahələrə qayğı ilə yanaşılır. Şəhər, rayon və kəndlərimizdə müasir standartlara cavab verən təhsil müəssisələri və idman obyektləri tikilərək istifadəyə verilir. Qayğı ilə yanaşılan sahələrdən biri də şahmatdır. Məktəblərdə şahmat siniflərinin, rayonlarda müasirtipli şahmat məktəblərinin inşası bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Muxtar respublikada şahmatın inkişafı sahəsində görülən işlər dünya ölkələrində yaradılan şəraitdən heç də geri qalmır. Həmçinin zəka idman növünün kütləvi hal alması üçün dövlət tərəfindən məqsədyönlü addımlar atılır, tədbirlər planı hazırlanıb həyata keçirilir.

Vurğulanmışdır ki, 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə Ali Məclis Sədrinin idmanın inkişafı və federasiyaların fəaliyyəti ilə bağlı verdiyi tapşırıqlar, qarşıya qoyduğu vəzifələrin icrası Şahmat Federasiyası tərəfindən də diqqətdə saxlanılır. Şahmatın uşaq və gənclər arasında kütləvi hal alması istiqamətində ardıcıl işlər görülür.





Bu tədbirlər sırasında muxtar respublikada müəllim və şagirdlər üçün şahmat kitablarının tərcümə olunub çap etdirilməsi mühüm əhəmiyyət daşıyır. “Pillə-pillə” kitabının əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Şahmat Mərkəzinin direktoru Emin Hacıyev tərəfindən redaktə edilərək çap olunub. Şahmatın sirlərindən və əsaslarından ibarət olan bu kitab müəllim və şagirdlərimiz üçün dəyərli vəsaitdir. Kitab gənc şahmatçıların püxtələşməsinə və onların peşəkarlığının artırılmasına kömək edəcək. Bundan sonra da yeni kitablar nəşr olunaraq müəllim və şahmatçıların ixtiyarına veriləcəkdir.

Seymur Talıbov bu il də Naxçıvanda Beynəlxalq Şahmat Festivalının keçiriləcəyini bildirmiş və muxtar respublika şahmatçılarına yarışlarda uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd etmişdir ki, muxtar respublikada bütün sahələr kimi, sağlam gəncliyin yetişdirilməsinə xidmət edən şahmatın inkişafına da diqqət və qayğı göstərilir. Şahmat mərkəzi və məktəbləri 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunmuş, ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılmış, ümumilikdə, bu məktəblərə 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti verilmişdir. Nazir şahmatın tədrisi sahəsində qazanılan uğurların, eləcə də tədrisin səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan islahatların tədris proqramına uyğun şahmata aid dərs vəsaitlərinin çap edilməsinə zəmin yaratdığını bildirmişdir. Vurğulamışdır ki, Şahmat Federasiyasının təşkilatçılığı ilə 800 nüsxə nəşr olunan və bu gün təqdimatı keçirilən “Pillə-pillə” kitabı məhz ümumtəhsil məktəblərində şahmatın dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlara olan ehtiyacının qarşılanması məqsədini daşıyır.

Tədbirdə Naxçıvan Şəhər Şahmat Mərkəzinin direktoru Emin Hacıyev, Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Sabir Məmmədov, Naxçıvan Qarnizonu tam orta məktəbinin şahmat müəllimi Tural Zeynalov çıxış edərək Şahmat Federasiyasının təşəbbüsü ilə tərcümə edilmiş “Pillə-pillə” kitabını şahmat fənninin tədrisində mövcud çətinliklərin aradan qaldırılmasına və şahmatın tədrisi keyfiyyətinin yüksəldilməsinə əsaslı təsir göstərəcəyini bildirmişlər. Çıxış edənlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə şahmatın inkişafına göstərdiyi qayğıya və şahmatçılara yaradılan şəraitə görə minnətdarlıq etmişlər.



Tədbirin sonunda Naxçıvan şəhər ümumtəhsil məktəblərinin sertifikat almış şahmat müəllimlərinə “Pillə-pillə” kitabı təqdim olunmuşdur.

Qeyd edək ki, kitabda şahmatı sərbəst şəkildə öyrənənlər üçün nəzərdə tutulan nəzəri və praktik biliklərin sistemli şəkildə izahı, şahmatın əlifbası, fiqurların dəyəri, şahmat oyununun elementləri, dünya təcrübəsindəki yaradıcı oyunlardan nümunələr, bir sıra dünya çempionlarının şahmatla bağlı fikirləri və oyun nümunələri verilmişdir.

**“Şərq qapısı”**

## Naxçıvan Dövlət Universitetində nümayəndə heyəti ilə görüş keçirilib

Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, nümayəndəliyin əməkdaşlıq bölməsinin rəhbəri Simona Qatti, proqram rəhbəri Ramilə Aslanova, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olublar. Qonaqlar universitetin ərazisində ağacəkmə mərasimində iştirak ediblər.



Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonaqlara ali təhsil ocağının zəngin maddi-texniki bazası, tərəfdaş olduğu ölkələrlə apardığı tələbə-müəllim mübadiləsi haqqında məlumat verib. Rektor dünyanın 50-dən çox ölkəsinin 80-dən çox tanınmış ali təhsil ocağı ilə beynəlxalq əməkdaşlığa malik olan universitetin qoşulduğu Erasmus+ proqramı çərçivəsində Avropa universitetləri ilə birgə qarşılıqlı əməkdaşlığından söhbət açıb.

Sonra Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Avropa Birliyi haqqında məlumat verib. Bildirilib ki, 28 dövləti birləşdirən dövlətlərüstü və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilat olan, 1951-ci ildə yaradılan ittifaq özündə həm beynəlxalq təşkilat, həm də dövlət əlamətləri daşısa da, bəzi məsələlər birliyin ümumi institutları, bəziləri isə üzv dövlətlərin nümayəndələrinin razılaşması ilə həll edilir. Birliyin ölkəmizlə bir çox sahələrdə əməkdaşlığını diqqətə çəkən səfir təhsil sahəsində birgə layihələrin əhəmiyyətini vurğulayıb. Çıxışda Erasmus+ proqramı haqqında da məlumat verilib. Tələbələrlə qarşılıqlı diskussiya şəklində qurulan görüş yaddaqalan olub. Qonaq suallarını cavablandıran tələbələri hədiyyələrlə mükafatlandırıb.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində tələbələr üçün “Dayanıqlı inkişaf məqsədləri” mövzusunda mühazirə deyib. Qonaq bildirib ki, Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunub. O, tələbələrə İnkişaf Proqramı ilə Azərbaycan arasında əməkdaşlığın uğurla davam etməsindən, eyni zamanda sosial müdafiə, məşğulluq sahəsində birgə işlərin əhatə dairəsinin genişlənməsindən ətraflı danışıb. BMT İnkişaf Proqramının qarşıdakı dövrdə də ölkəmizlə əməkdaşlıq perspektivlərindən bəhs edib.



Universitetin Magistratura üzrə dekanlığında təşkil edilən mühazirədə isə AMFA-nın layihə koordinatoru Sevinc Rüstəmova “Maliyyə savadlılığına dair master-klass” keçib. Tələbələr maliyyə savadlılığı, büdcə planlaşdırılması, bank məhsulları, sahibkarlıq və sair mövzularla əlaqədar məlumat alıblar. Qarşılıqlı müzakirə şəklində qurulan mühazirədə tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Gənclər hərbi xidmətə yola salınıb



***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Naxçıvan Şəhər Təşkilatının sədri Davud Süleymanov, Naxçıvan Şəhər Prokurorluğunun 3-cü dərəcəli hüquqşünası Abdulla Quliyev və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək hərbi xidmətə yola salınanlara uğurlar arzulayıblar. Valideyn İntiqam Hüseynov çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Aqil Musayev Vətənə xidmət etməyin onlar üçün ən ali borc olduğunu bildirib, bu borcu şərəflə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov əminliyini bildirib ki, sarsılmaz dövlət-xalq-ordu birliyi sayəsində bu gün hərbi xidmətə yola düşən gənc çağırışçılar da Vətənimizə ləyaqətlə xidmət edərək müstəqilliyimizin qorunmasına və möhkəmlənməsinə öz töhfələrini verəcəklər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov çıxışında qeyd edib ki, indi Azərbaycanın güclü ordusu var. Güclü ordu isə düşmənə hər an layiqli cavab verməyə qadirdir. Ordumuzun yüksək əhval-ruhiyyəli əsgərlərinin, güclü maddi-texniki bazasının olması düşmənə gözdağıdır. İnanırıq ki, bu gün hərbi xidmətə yola saldığımız gənclər ordumuzun qorxmaz, cəsur və layiqli əsgərləri olacaqlar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

**Pərviz HACILI**



# Kükü və Ağbulaq kəndlərində turist qəbul edəcək hostellərin təqdimatı olub

Tədbirdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək muxtar respublikamızda turizmin inkişafı sahəsində görülən məqsədyönlü tədbirlərdən ətraflı söhbət açıb.

Bildirilib ki, füsunkar təbiətə malik Şahbuz rayonunun Kükü kəndi turizm həvəskarları üçün gözəl istirahət məkanıdır. Yaradılmış şərait, xidmət sahələri ilə yanaşı, təbii şərait də kənd yerlərinə getdikcə daha çox turist cəlb edir. Bu baxımdan Ağbulaq kəndi də kənd turizmi üçün əlverişli şəraitə malik olduğuna görə burada mühüm tədbirlər həyata keçirilir. 2013-cü ildə Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi kənddə həmin ildən turizmin inkişafına şərait yaradıb. Gələcəkdə Ağbulaq kəndində Xizək Mərkəzinin istifadəyə verilməsi ilin bütün fəsillərində burada turistlərin istirahətlərinin təşkilinə şərait yaradacaqdır.

Ağbulaq və Kükü kəndlərində əhali arasında maarifləndirmə işi aparılıb, evlərə baxış keçirilərək turizm mövsümü ərzində turist qəbul edə biləcək və gələcəkdə hostel kimi istifadə edilə biləcək evlər müəyyənləşdirilib. Hostellərin qiymətləndirilməsi Azərbaycan Respublikasının Dövlət Standartlarına uyğun olaraq aparılıb. Qanunvericiliyə uyğun olaraq sertifikat və VÖEN hazırlanıb. Həmçinin hostellərin fotoşəkilləri çəkilib, məlumatlar toplanaraq komplektləşdirilib. Bununla bağlı Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində ayrıca bölmə yaradılıb. Departamentin sədri yaradılmış şəraitə, turizmin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Şahbuz Rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri Nazim Rüstəmovun da çıxışı dinlənilib. Kükü kəndində Lətifə Bədəlovaya, Rahib Vəliyevə, Qüdrət Quliyevə, Qorxmaz Baxşəliyevə, Ədalət Quliyevə, Ağbulaq kəndində isə Balaxanım Məmmədovaya, Güləndam Hüseynovaya, Əsəd İbrahimova VÖEN və Sertifikatlar təqdim edilib.

Tədbirdə Avropa İttifaqının maliyyələşdirdiyi “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsinin icrası ilə bağlı muxtar respublikamızda səfərdə olan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin vəzifəsini icra edən Alessandro Frakassetti və digər qonaqlar da iştirak ediblər. Qonaqlar Şahbuz rayonunun zəngin turizm potensialı, burada turizmin inkişafı üçün yaradılan əlverişli şəraitlə yaxından tanış olublar.

**Hicran ƏLİYEVA**

---

*Jurnalistin qeydləri*

# Naxçıvan yeni dövrün çağırışları ilə addımlayır: *Startap yarat!*

*İnkişaf və yüksəliş əsri olan 21-ci əsr həm də informasiya və kommunikasiya texnologiyalarının günbəgün müasirləşməsi ilə yadda qalır. Xüsusilə gənclərin dövrümüzlə uzlaşan yeni biliklərinin, onlara məxsus innovasiyaların istehsalatda geniş tətbiqi qabaqcıl ölkələrin həm iqtisadi, həm də siyasi maraqları ilə üst-üstə düşür. Bu istiqamətdə Azərbaycanda da ardıcıl tədbirlər həyata keçirilir, dövlət-gənclər siyasətinin məğz və mahiyyəti gənclərin sağlam, intellektli, vətənpərvər, yeni dövrün çağırışlarına cavab verən şəkildə formalaşması ilə uzlaşdırılır. Artıq gənclərimiz dünya elm-təhsil məkanına inteqrasiya edir, yeni texnologiyaları yaxından mənimsəyir, səmərəli ideya, layihə və təşəbbüslər – startaplar ətrafında birləşirlər.*

Bəs startaplar nədir və onlar müasir dövrümüzdə necə başa düşülür?

Startap dedikdə, ilk növbədə, mövcud olmayan hər hansı bir ideyanın reallaşdırılması nəzərdə tutulur. Həmçinin daha əvvəldən mövcud olan hər hansı bir ideyanın təkmilləşdirilməsi üçün ehtiyacı aradan qaldıran və bəzən də həmin ideyanı ehtiyac halına gətirən inkişafa meyilli təşəbbüslər və ideyalar başa düşülür. Çox zaman startap dedikdə yalnız informasiya texnologiyaları sahəsi ilə əlaqədar təşəbbüslər nəzərdə tutulur. Amma unutmaq lazım deyil ki, startaplar iqtisadiyyatın bütün sahələrinə, o cümlədən tibb, turizm, təhsil kimi mühüm əhəmiyyətli sahələrə də aid ola bilər. Bu gün geniş yayılan layihələr sırasında sosial startaplar da vardır. Mütəxəssislərin sözləri ilə desək, təqdim edilən layihələrin son məqsədi isə real biznesin qurulmasına, xidmətlərin, sosial servislərin təqdim edilməsinə yönəlməli və müştəri cəlb edilməsinə istiqamətləndirilməlidir. Yəni hər bir layihə daha effektiv innovasiyalara istiqamətlənməlidir.

Ötən əsrin əvvəllərində ilk dəfə Amerika Birləşmiş Ştatlarında meydana gələn startap anlayışı informasiya texnologiyalarının böyük inkişaf yolu keçdiyi müasir dövrdə innovativ inkişafın əsas meyarı kimi qəbul olunur. “Startap” sözü ingilis dilindən başlanğıc, təşəbbüs kimi tərcümə olunur. Bu gün dünyanın ən uğurlu startap layihələri texnologiya nəhəngi “HP”, “Facebook”, “YouTube”, “Instagram” kimi sosial şəbəkələr, eyni zamanda “Wikipedia” açıq internet ensiklopediyasıdır.

Bununla yanaşı, dünyanın müxtəlif ölkələrində yeni texnoloji avadanlıq olan smart saatlar, müxtəlif onlayn bank sistemləri, istənilən ünvana qida məhsullarının və geyim əşyalarının dərhal, ödənişsiz və təhlükəsiz çatdırılması kimi ideyalar da startap nümunəsidir. Gənclər tərəfindən həyata keçirilən startaplara adını çəkmədiyimiz bir sıra əlavə layihələr də daxildir. Onlardan ən çoxu innovasiya və texnologiyalar sahəsində tətbiq olunur.

Gəlin gənclər tərəfindən həyata keçirilən bir neçə layihə ilə tanış olaq.

2001-ci ilin yanvar ayında istifadəyə verilən “Wikipedia” – açıq dünya ensiklopediyası dünyanın ən geniş informasiya mənbələrindən biridir. 2018-ci ilin sentyabr ayında “Wikipedia” dünyanın 5-ci məşhur və zəngin saytları sırasında yer alıb. Belə ki, “Wikipedia” saytına 1 ay ərzində yalnız Amerika Birləşmiş Ştatlarından 117 milyon baxış olub.

2004-cü ilin fevral ayında istifadəyə verilən “Facebook” bu gün dünyanın ən böyük sosial şəbəkəsi hesab olunur. Bu sayt amerikalı texnologiya sahibkarı gənc Mark Zukerberq və onun otaq yoldaşı Eduardo Saverin tərəfindən tələbəlik illərində yaradılıb. Bu startap layihəsi və özünün mükəmməl ideyası ilə tanınan Mark Zukerberq bu gün dünyanın ən zəngin insanlarından biri sayılır.




Videomaterialların ən böyük bazası hesab edilən “Youtube” videopaylaşım kanalı 2005-ci ilin fevral ayında istifadəyə verilib. Əvvəllər internet üzərindən onlayn ödəmə sistemində işləyən Çad Hörli, Stiv Çen və Ceyvid Karim tərəfindən yaradılıb. “Youtube” kanalına ilk videonun yüklənməsi Ceyvid Karim tərəfindən həyata keçirilib. Elə bunun nəticəsidir ki, Ceyvid Karim hazırda San-Fransiskoda fəaliyyət göstərən “Airbnb” şirkətinin ən zəngin investorlarından biridir.

Şəkil və qısa videoların paylaşıldığı ən böyük sosial şəbəkə olan “Instagram” ilk dəfə 2010-cu ilin oktyabr ayında 27 yaşlı gənc kompüter proqramçısı Kevin Sistrom tərəfindən yaradılıb. Kevin Sistrom 2016-cı ildə dünyanın ən zəngin sahibkarları sırasına daxil edilib. Bu sosial şəbəkə istifadəyə verildiyi zaman şirkətin cəmi 13 işçisi var idi. Lakin hazırda şirkət 15 mindən artıq işçi ilə fəaliyyət göstərir. Bu gün “Instagram” sosial şəbəkəsinin 1,1 milyard izləyicisi vardır.

Ağıllı telefonlarda – smartfonlarda ani mesajlaşmada mətn mesajlarını, təsvirləri, videoları və audiosəsləri göndərmək üçün nəzərdə tutulan “Whatsapp” sosial şəbəkəsi 2009-cu ildə Brian Akton tərəfindən yaradılıb. Hazırda geniş izləyici kütləsinə sahibdir.

Daha bir uğurlu startap layihəsi olan “Starlinq bank” Böyük Britaniyada fəaliyyət göstərən onlayn bank xidmətinə görə fərqlənir. Bütün ənənəvi bankların funksiyalarını həyata keçirir. İstifadəçilərə ümumi hesab açmaq imkanı verən bank həmin hesabdan ortaq məqsəd üçün əldə edilmiş vəsaiti 39 müxtəlif ölkənin kartlarına təcili şəkildə köçürə bilir.

Gənclərin yaratdığı Selfi dronla isə yüksəkeffektli çəkilişlər həyata keçirilir. Alimlərin araşdırmalarına görə, 2018-ci ilin sonlarında 600 min dron istifadə olunub. Bu gün həmin dronlar vasitəsilə çöllərdə, səhralarda və digər əlçatmaz, ucqar yerlərdə çəkilişlər aparmaq mümkündür. Bu iqtisadi bazara böyük maraq var. Hesablamalar göstərir ki, əldə olunan gəlir 127 milyard dollardan artıqdır. Bu gün həmin dronlar vasitəsilə istənilən məsafədən və dünyanın ən ucqar nöqtələrində də çəkilişlər etmək mümkündür.

Göründüyü kimi, startap layihələrinin uğurlu olmasında əsas şərt ideyanın mükəmməlliyidir. Bu zaman investisiya cəlbi və layihənin reallaşdırılması asan başa gəlir. Əksər vaxt startaplar bir neçə şəxs tərəfindən birgə yaradılır. İlkin mərhələlərdə startapların özünü təsdiq etməsi və gəlir gətirməsi xeyli zaman tələb edə bilir. Ona görə də bu zaman kəsiyində mövcud problemləri düzgün dəyərləndirmək, konkret nəticə çıxarmaq əsas məsələdir.

Son illər ölkəmizdə müasir informasiyalı cəmiyyətin qurulması, yeni texnologiyaların tətbiqi, gənclərin təşəbbüslərinə geniş yer verilməsi və ideyalarının dəstəklənməsi startap hərəkatının inkişafına səbəb olub.

Startap layihələri daha çox aşağıdakı istiqamətlər üzrə reallaşdırılır:

- *biznesyönümlü ideyaları olan gənclərin biznes təfəkkürlərini inkişaf etdirmək, onlar üçün maddi baza təmin etmək və biznes vərdişlərini formalaşdırmaq;*
- *informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri – startapları dəstəkləyərək onların böyüməsinə kömək etmək;*
- *istedadlı gəncləri müəyyənləşdirmək, fərqli perspektivli ideyaları təkmilləşdirmək və layihələri ölkə sərhədlərindən kənarda da tanıtmaq;*
- *gənclərin biznes savadlılığının artırılmasına nail olmaq;*
- *gənclərin innovativ potensialı və təşəbbüskarlığını dəstəkləmək;*
- *gənclərin ölkə iqtisadiyyatında daha səmərəli iştirakını təmin etmək və məşğulluğunu artırmaq.*
- *startapçılar üçün təlimlər təşkil etmək və investorlarla görüşlər keçirmək.*

Artıq dünya bir reallığı qəbul edib ki, startap layihələrinin dəstəklənməsi hər bir ölkənin innovasiya potensialının məhv olmasının qarşısının alınmasında yeganə faktordur. Ona görə də bu gün dünyanın aparıcı korporasiyaları və şirkətləri öz büdcələrindən startap layihələrinin maliyyələşdirilməsi üçün vəsait ayıraraq gənc startapçıları öz ətrafına yığır, bəzən onların kiçik startapları əsasında böyük biznes layihələrini gerçəkləşdirirlər. Belə böyük biznes subyektləri bu layihələrə milyonlarla dollar vəsait sərf edirlər.

Naxçıvan Muxtar Respublikasında da gənclərin fəaliyyətinin dəstəklənməsi, onlar üçün geniş imkanların yaradılması innovativ inkişaf sahəsində mütərəqqi tədbirlər kimi diqqəti cəlb edir. Son illər elm və təhsilin inkişafı, bu sahənin maddi-texniki bazasının xeyli möhkəmləndirilməsi, yeni texnologiyaların iqtisadiyyatın və sosial həyatın bütün sahələrində tətbiqi, elektron hökumətə keçid, sürətli internet təminatı, əlverişli biznes və investisiya mühitinin yaradılması innovativ inkişafın ilkin mərhələdə tətbiqinə və uğurlu biznes sahəsinə çevrilməsinə imkan verib.

Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 98 ixtisas və 1 lisey 31 təşkilata hamiliyə verilib. Bu sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənmiş, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət etmiş, gənclər tərəfindən irəli sürüləcək yeni startaplar üçün münbit zəmin hazırlamışdır.

Naxçıvanda son illər həyata keçirilən elektron sənəd dövriyyəsi layihəsi, teleradioların bölgələrlə əlaqəsini təmin edən intranet şəbəkəsi, elektron kitabxana, elektron sağlamlıq kartları və tibbi-sosial sığorta, elektron universitet, muzeylərlə təhsil müəssisələri arasındakı interaktiv əlaqə və açıq dərslər, sağlamlıq imkanları məhdud uşaqlar üçün təşkil edilən distant təhsil, Naxçıvanın ailə təsərrüfatları modeli, qədim diyarda son illər formalaşan festival ənənələri və bu festivallarda brend məhsulların təbliği, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi startap layihələrinə nümunə ola bilər.

Həmçinin ölkəmizdə, eləcə də Naxçıvanda tələbələrin iştirakı ilə “İdeyadan biznesə” layihəsi çərçivəsində təşkil edilən “Startap turları” da gənclərin yeni ideyalar ətrafında birləşməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Ötən il Naxçıvanda keçirilən startap turunda tələbə-gənclərimizin təqdim etdikləri “Nouhland” və “Compex” layihələri, eləcə də “Naxçıvan məhsullarının onlayn satışı”, “Nads” və “Naxçıvan Book House” layihələri qalib olublar.

Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin davamı kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2019-cu il aprelin 3-də “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncam imzalayıb: Sərəncamda deyilir: *“Müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Aparılan islahatlar kadr hazırlığına müasir yanaşma və eyni zamanda vətəndaşın müasir cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Naxçıvan Muxtar Respublikasında da son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir”.*

Sərəncamda da qeyd olunduğu kimi, ali və orta ixtisas məktəblərindəki ixtisasların hamiliyə verilməsi kadr potensialının dəstəklənməsi ilə yanaşı, həm də gənclərin istedadlarının üzə çıxarılması, ideyalarının diqqətə alınması və ilkin startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addım olmuşdur.

Ali Məclis Sədrinin həmin sərəncamına əsasən “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi qaydası” yeni redaksiyada təsdiq edilib. Bundan başqa, sərəncamda “İdeyadan başlanğıca” devizi altında hamiliyə verilən təhsil müəssisələri tərəfindən hami təşkilatlarla birgə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi, hami təşkilatlarda layihələrin dəyərləndirilməsini həyata keçirən ekspert qrupları və ictimai əsaslarla fəaliyyət göstərən mərkəzlərin yaradılması, həmin layihələrin – startapların qəbulunun və təqdimatlarının keçirilməsinin təmin edilməsi qərara alınıb. Qarşıya qoyulmuş tələblərə əsasən hamiliyə verilən ali və orta ixtisas təhsili müəssisələri bu sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə müvafiq tədbirləri həyata keçirəcək, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi aid təşkilatların təklifləri əsasında layihələrə, o cümlədən startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalını yaradacaqdır.

***P.S.** Əminliklə bildirmək olar ki, Ali Məclis Sədrinin müvafiq sərəncamı, muxtar respublika rəhbərinin iştirakı ilə keçirilən müşavirə və konfranslarda qarşıya qoyulan vəzifələr Naxçıvanda innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsinə, gənclərin startap layihələrinin dəstəklənməsinə və yeni şirkətlərin formalaşmasına mühüm töhfə verəcəkdir.*

**Sahil TAHİRLİ**
***“Nuhçıxan” İnformasiya Agentliyi***
***14 aprel 2019-cu il***

18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

# NAXÇIVAN
## tarixi abidələr diyarıdır



*1982-ci ildən UNESKO-nun qərarı ilə hər il aprelin 18-i dünyada “Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” kimi qeyd olunur.*

Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bəşər sivilizasiyasının ilk meydana gəlmiş ərazilərindəndir. Əcdadlarımız çox dəyərli maddi mədəniyyət nümunələri yaratmışlar. Bu tarix və mədəniyyət abidələri xalqımızın minilliklərboyu bu torpaqlarda yaşadığını sübut edən qiymətli yadigarlardır.

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrlərində xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub saxlanılması sahəsində böyük işlər görülmüş, zəngin qanunvericilik bazası yaradılmışdır. Dahi şəxsiyyət tarix və mədəniyyət abidələrinin qorunmasının vacibliyini bildirərək demişdir: ***“Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi üçün zəruri qanunların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır”.***




Ölkəmizdə milli-mədəni irsin qorunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Proqram milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

Qədim Naxçıvan Şərqlə Qərb arasında mühüm karvan yolları üzərində yerləşdiyindən müxtəlif mədəniyyətlərlə geniş əlaqədə olmaqla xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən mağaralar, yaşayış yerləri, möhtəşəm qalalar, məbədlər, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir. Əcəmi Əbubəkr oğlu Naxçıvani böyük memarlıq məktəbi yaratmış, naxçıvanlı memarlar dünya mədəniyyətinə gözəl nümunələr bəxş etmişlər. Bu memarlıq məktəbi Şərq memarlıq sənətinə də böyük təsir göstərmişdir. Qayaüstü təsvirlərin qeydə alındığı Gəmiqaya abidəsi Naxçıvanın ən qədim dövr incəsənətinin mənəvi və maddi mədəniyyətinin canlı ensiklopediyasıdır. Gəmiqayadakı qayaüstü rəsmlər, müxtəlif kompozisiyalı təsvirlərlə birlikdə həndəsi işarələr, piktoqrafik yazılar ilkin insan təfəkkürünün, estetik baxışlarının, dünyagörüşünün, təsəvvürlərinin bu günə çatdırılması baxımından əvəzsiz mənbələrdir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək deyirdi: ***“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir”.***



Bu gün dünyanın ən qədim insan məskənlərindən olan Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” 2001-ci il 26 aprel tarixli Sərəncamına uyğun olaraq Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində mühüm mərhələnin əsası qoyulmuş, 1200-dən çox abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Abidələr təkcə tarixin yaddaşı və yadigarları deyil, eyni zamanda maddi mədəniyyət nümunələridir. Ona görə də onların qorunması və gələcək nəsillərə çatdırılması olduqca vacibdir. Son illər qədim diyarımızda 70-dən artıq abidəyə ikinci həyat verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında”, 2010-cu ildə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında”, 2013-cü ildə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında”, 2014-cü ildə “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında”, 2015-ci ildə “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında”, 2016-cı ildə “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” imzaladığı sərəncamlar tariximizin və mədəni irsimizin öyrənilməsi, təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir.



Ötən il Kəngərli rayonunda XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksi, Şərur rayonunun Yengicə kəndində XVIII-XIX əsrlərə aid Şərq hamamı, Babək rayonunun Nehrəm kəndində XVIII əsrin yadigarı olan İmamzadə, Naxçıvan şəhərində XVIII əsrə aid İmamzadə Kompleksi, XVII əsrin memarlıq abidəsi olan Qazançı körpüsü bərpa olunmuşdur. Bundan başqa, son illərdə qədim diyarımızda möhtəşəm türk-islam memarlığı abidələri olan abidələr inşa olunaraq istifadəyə verilmişdir.

Muxtar respublikada abidələrimizin tədqiq olunması və mədəniyyətimizin beynəlxalq miqyasda təbliği istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 1996-cı ildə “Uluslararası qaynaqlarda Naxçıvan”, 2009-cu ildə “Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan”, 2011-ci ildə “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi”, 2012-ci ildə “Naxçıvan: ilkin şəhər və Duzdağ”, 2016-cı ildə “Naxçıvan qalaları: tarixdə və günümüzdə” mövzularında beynəlxalq simpoziumların və konfransların keçirilməsi mühüm əhəmiyyət daşımışdır. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beşminillik tarixi əhatə edən Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Muxtar respublikada aparılan arxeoloji ekspedisiyalarda ABŞ, Fransa, Türkiyə, Macarıstan və başqa ölkələrin arxeoloqları iştirak edirlər. Diyarımızdakı abidələrin öyrənilməsi və təbliği sahəsində də əhəmiyyətli işlər görülür. 2008-ci ildə “Naxçıvan Abidələri Ensiklopediyası”nın nəşr edilməsi yalnız Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Ensiklopediya Naxçıvan abidələrinin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbədir. Son illər nəşr olunan “Naxçıvan tarixi atlası”, “Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan”, “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Naxçıvan tarixi” çoxcildliyi, “Gülüstan türbəsi”, “Əlincəqala”, “Qarabağlar türbəsi”, “Naxçıvan imamzadələri”, “Naxçıvan hamamları”, “Dədə Qorqud yurdu Naxçıvan: tarixi-coğrafi və etnoqrafik atlas”, “Naxçıvan – türk-islam mədəniyyəti abidələri” və başqa çoxsaylı kitablar bu sahədə görülən işlərin ardıcıllığını göstərir. 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar buradakı türk-islam mədəniyyəti abidələri ilə bağlı mühüm işlər görülmüş, “Naxçıvan buzxanaları”, “Naxçıvan hamamları”, “Naxçıvan türbələri” və başqa kitablar nəşr edilmiş, “Naxçıvan: türk-islam mədəniyyəti” televiziya filmi çəkilmişdir.

Naxçıvanın abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasında əhəmiyyətli rol oynayır. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər baxımından səyahət turizminin ən ideal məkanlarındandır.

*Hər bir xalqın qədimliyi, ululuğu onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır. Əcdadlarımızın əziz yadigarlarını bərpa etmək, sabaha dünənin ən yaxşı ənənələrini aparmaq, keçmişi qorumaq hər birimizin vətəndaşlıq borcudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar”.***

## Mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişlənib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu ilin birinci rübündə milli dəyərlərimizin yaşadılması, qorunması və təbliği sahəsində tədbirlər keçirilmiş, görkəmli sənət adamlarının yubileyləri qeyd edilmişdir.*

Muxtar respublikanın rayon mədəniyyət saraylarında əhalinin asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədilə 20 konsert və 11 tamaşa təşkil olunmuşdur. Həmçinin müxtəlif müsabiqələr, dəyirmi masa, oxucu konfransı, xatirə gecəsi, anım günü, kitab müzakirəsi, intellektual oyun, maarifləndirici tədbir, mühazirə, metodik kurs, seminar-treninq, kitabxana və kitabxanaçı, mütaliə, nağıl günləri, açıq və distant dərslərin keçilməsi diqqətdə saxlanılmış, sərgilər təşkil olunmuşdur. Şərur yallılarının reyestrə alınması işi də davam etdirilmiş, bir neçə yallının çəkilişi aparılmış və nota köçürülmüşdür.

Bu dövrdə muzeyləri 30 min 523-ü əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 125 min 998 tamaşaçı ziyarət etmişdir. Muzey fondlarının zənginləşdirilməsində muxtar respublika sakinləri fəal iştirak etmiş, muzeylərə 410 eksponat daxil olmuşdur. Kitabxanalara 215 adda 581 nüsxə çap məhsulu verilmişdir. Ötən dövrdə muxtar respublika kitabxanalarında yeni oxucu sayı 926, oxucu gəlişi 26 min 770 nəfər olmuş, 33 məhdud fiziki imkanlı şəxsə səyyar kitabxana xidməti göstərilmişdir. Mədəniyyət müəssisələrinin fəaliyyəti də diqqətdə saxlanılmış, dərnəklərin təşkili ilə bağlı işlər görülmüş, mədəniyyət evləri və klublarda 569 mədəni-kütləvi tədbir keçirilmiş, 182 sərgi açılmışdır.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı Hüseyn Cavidin “Xəyyam”, Əli Əmirlinin “Əli və Nino”, Xaqani Əliyevin Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş “Ehsan xan Kəngərli”, Naxçıvan Dövlət Kukla Teatrı “İnanmayaq tülkülərə”, “Göyçək Fatma”, “Adam-badam iyisi gəlir”, “Qoğalın sərgüzəşti”, Naxçıvan Dövlət Uşaq Teatrı “Bu günün çay dəsgahı”, Babək Rayon Xalq Teatrı “Beş manatlıq gəlin”, Şərur Rayon Xalq Teatrı “Varlı qadın”, Ordubad Rayon Xalq Teatrı “Yalan” tamaşalarını nümayiş etdirmişdir. Naxçıvan Dövlət Film Fondu “Azərbaycan Kinosu Günü” layihəsi çərçivəsində muxtar respublikanın rayon və kəndlərində “Yarımçıq xatirələr”, “Nəsimi”, “Dərs”, “Cavad xan” filmlərini nümayiş etdirmiş, məktəblilər üçün kinoviktorina keçirilmişdir.

Novruz bayramı münasibətilə keçirilən şənliklərdə musiqi, teatr, təhsil müəssisələri kollektivlərinin rəngarəng konsert proqramları olmuşdur.

Birinci rübdə yaddaqalan mədəniyyət hadisələrindən biri də Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin “Testene ART Baku-2019” III Beynəlxalq İncəsənət festival-müsabiqəsində iştirak etməsidir. Müxtəlif yaş qrupları üzrə 180-ə yaxın iştirakçının qatıldığı müsabiqədə kollecin 9 tələbə və 1 müəllimi diplomlara layiq görülmüşdür. Festival-müsabiqənin Qran-pri mükafatçısı Nəcəf Hacılı may ayında İtaliyada keçiriləcək “Özünü dünyaya tanıt” beynəlxalq festival-müsabiqəsində Naxçıvanı təmsil edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Sərnişindaşıma xidməti yaxşılaşdırılır



Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti 2019-cu ilin birinci rübündə muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidməti səviyyəsinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Hesabat dövründə avtovağzalların fəaliyyəti diqqətdə saxlanılmış, sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülmüş, sürücülərin ayda iki dəfə qrup şəklində muzeylərə ekskursiyaları və seminar-müşavirələr təşkil olunmuşdur.

Ötən dövrdə Naxçıvan-İqdır-Naxçıvan marşrutunda gündəlik sərnişindaşıma xidməti həyata keçirilmişdir. Sərnişinlərin rahatlığını təmin etmək üçün Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslardan birinin hər gün Şərur və Culfa avtovağzallarından yola salınması, Şahbuz və Ordubad avtovağzallarında isə bu avtobusa bilet satışı işi davam etdirilmişdir. 2019-cu ilin ilk üç ayında Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə Naxçıvandan Bakıya 4 min 525, Bakıdan Naxçıvana isə 4 min 806 sərnişin daşınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq sərnişinlərin vaxt itkisinin azaldılması məqsədilə Naxçıvan-Bakı-Naxçıvan marşrutunun axşam reysləri də təşkil edilmişdir. Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında turların təşkil olunması üçün Türkiyənin “Babək Turizm” və “Ata-Tur Turizm” firmaları ilə danışıqlar aparılmış, sərnişindaşıma fəaliyyəti göstərilməsi üçün müqavilələr bağlanılmışdır.

Naxçıvan Dövlət Texniki Kollecinin Yol hərəkətinin təşkili ixtisasında təhsil alan IV kurs tələbələrinin xüsusi qrafik üzrə xidmətdə və tabe təşkilatlarda istehsalat təcrübələrinin keçirilməsi işi təşkil olunmuşdur. Həmçinin muxtar respublika üzrə avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyətinə lisenziyaların verilməsi işi davam etdirilmiş, hesabat dövründə muxtar respublika üzrə avtomobil nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti göstərmək üçün 734 sahibkar lisenziyaya cəlb edilmiş, 761 avtonəqliyyat vasitəsinə lisenziya kartı verilmişdir.

Xidmətin Reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə reydlər keçirmiş, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarəti artırmış, qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələri müəyyən edilərək tədbir görülməsi üçün onlar haqqında məlumat müvafiq təşkilatlara göndərilmişdir. Avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınmasına, marşrut qrafikinə, xətdə olarkən avtobusların sürət həddinə nəzarət olunması üçün Naxtel 4G monitorinqizləmə sistemindən daim istifadə olunmuşdur.

Muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilmiş, 496 taksi sərnişindaşıma xidməti göstərmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti***

## “Molla Nəsrəddin” jurnalının fəaliyyətə başlamasının 113 illiyi qeyd olunub

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə “Molla Nəsrəddin” satirik jurnalının ilk nömrəsinin çapdan çıxmasının 113 illiyinə həsr olunan elmi konfrans keçirilib.***



Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Azərbaycanın ədəbiyyat tarixində əvəzsiz xidmətləri olan görkəmli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin yaradıcılığından, onun təşəbbüsü, naşirliyi ilə dərc edilən “Molla Nəsrəddin” jurnalının milli mətbuatımızın inkişafında yeri və rolundan danışıb. Qeyd edib ki, əsərləri, publisistikası və böyük mətbuatçılıq fəaliyyəti ilə Cəlil Məmmədquluzadə Azərbaycan xalqının maariflənməsində əvəzsiz işlər görüb.

Akademik jurnalın 1906-cı ilin aprel ayından nəşrə başlandığını, 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunduğunu söyləyib. Qeyd edib ki, nəşr öz ətrafında Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Üzeyir bəy Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Əli Nəzmi, Mirzə Əli Möcüz kimi görkəmli simaları birləşdirməyi bacarıb və böyük bir məktəb yaradıb. Zülmə, əsarətə, avamlığa qarşı kəskin mübarizə aparan Cəlil Məmmədquluzadə jurnalda karikaturalara geniş yer verməklə xalqı bir çox mətləblərdən agah edib.

Nəşrin 100 illik yubileyinin qeyd olunması ilə bağlı ölkə başçısı tərəfindən 23 yanvar 2006-cı ildə Sərəncam imzalandığı xatırladılıb, jurnalın latın qrafikası ilə yenidən çap olunduğu bildirilib.

Konfransda, həmçinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun “Molla Nəsrəddin” jurnalı və mollanəsrəddinçilik”, institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Molla Nəsrəddin” jurnalı və dil məsələsi”, Folklorşünaslıq şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın “Molla Nəsrəddin” jurnalı və folklor”, Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsinin laborantı Şəmsiyyə Zalovanın “Molla Nəsrəddin” jurnalında qrafika sənəti” mövzularında məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## “Kətə” festivalı başa çatıb

*Qədim Nuh yurdunda xalqımıza məxsus milli və mənəvi dəyərlərin, folklorumuzun, adət-ənənələrimizin, o cümlədən milli mətbəx nümunələrimizin qorunub saxlanılmasına, onun təbliğ edilməsinə, yaşadılmasına böyük diqqət göstərilir. Artıq ənənə halını alan milli mətbəx günlərinin keçirilməsi, xalqımıza məxsus mətbəx nümunələrinin tanıdılması onların gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Belə festivallardan biri də aprelin 16-17-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirildi.*

“Kətə” festivalına həm yerli sakinlər, həm də qonaqlar böyük maraq göstəriblər. “Ailə təsərrüfatları ili”nə təsadüf edən, hər il olduğu kimi, bu il də hamının səbirsizliklə gözlədiyi növbəti “Kətə” festivalının ikinci günü də rəngarəng olub. Festivalın sonuncu günü “Ən dadlı kətə” nominasiyası üzrə müsabiqənin nəticələri elan edilib. Nümayiş olunan məhsulların görünüşünə, çeşid müxtəlifliyi və dadına görə münsiflər tərəfindən seçilərək festivalın qalibi, ikinci və üçüncü yerlərin sahibləri müəyyənləşdirilib. Şahbuz rayon Aşağı Qışlaq kənd sakini Südabə Məhərrəmova, Culfa rayon Kırna kənd sakini Çiçək Bayramova, Babək rayon Babək qəsəbə sakini Güllü Əsgərova, Naxçıvan şəhər sakini Nümunə Məmişova müsabiqənin qalibləri elan olunublar. Şərur rayon Ələkli kənd sakini Sevda Kazımova, Sədərək rayon Sədərək kənd sakini Mehbarə Hüseynova, Kəngərli rayon Böyükdüz kəndindən Nəsibə Rzayeva ikinci, Ordubad rayon Yuxarı Əndəmic kəndindən Azadə Mirzəli isə üçüncü yerə layiq görülüblər. Qaliblərə və festivalda fərqlənən “Azad” şirniyyat müəssisəsindən Azad Quliyevə diplomlar təqdim olunub.

Müsabiqənin qaliblərindən Şahbuz rayon Aşağı Qışlaq kənd sakini, ailə təsərrüfatı başçısı Südabə Məhərrəmovanın dedikləri:

– Bir neçə ildir ki, ailə təsərrüfatı yaratmışıq. Təsərrüfatımızda süd və kənd təsərrüfatı məhsulları istehsal edirik. Bu festivalların təşkili məhsullarımızı nümayiş etdirməyə, onlara alıcı tapmağa da şərait yaradır. Buraya gələn qonaqlar isə kətələrin hazırlanmasını və süfrəyə təqdim olunmasını canlı olaraq izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə edirlər. Bu cür tədbirlərin davamlı keçirilməsi xalqımıza məxsus mətbəx nümunələrini yaşatmaqda böyük rol oynayır. Göstərilən dövlət qayğısına, yaradılan şəraitə görə minnətdarlıq edirəm.

Digər müsahiblərimiz, ikinci yerə layiq görülən qadınlar da bu kimi tədbirlərin milli mətbəx nümunələrimizdən olan kətənin tanıdılmasında böyük rolu olduğunu qeyd edirlər. Bildirirlər ki, Naxçıvan mətbəxi öz bənzərsizliyi ilə seçilir. Özünəməxsus dad-tamı ilə qədimdən bəri mətbəximizdə yaşadılan kətə çeşidlərinin də tanıdılması üçün bu festivalların keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşiddə kətələrin hazırlanması qaydalarının nümayiş olunduğu festivala şəhər sakinlərinin, qonaqların, xüsusilə gənclərin marağı böyükdür. Onların içərisində xarici ölkələrdən gəlib burada təhsil alan tələbələr də az deyil. Elası var ki, kətənin dadına ilk dəfə baxır və çox dadlı olduğunu deyib bunun



necə hazırlanması ilə maraqlanır. Bu da başqa millətlərdən olan insanların kətənin xalqımızın mətbəx nümunəsi olduğunu öyrənmələrinə səbəb olur.

Festivalda həmsöhbət olduğumuz Naxçıvan Dövlət Universitetində təhsil alan türk tələbə Özləm Nefis dedi ki, 4 ildir, Naxçıvanda yaşayıram. Bura təmiz, gözəl bir şəhərdir, insanları qonaqpərvərdir. İlk dəfədir, “Kətə” festivalında iştirak edirəm. Buna baxmayaraq, kətənin dadına bir neçə dəfə baxmışam. Təndirdə bişirilən kətəni isə ilk dəfə idi dadırdım. Çox dadlı və ləzzətlidir. Artıq necə bişirildiyini də öyrənmişəm.

İran İslam Respublikasının Urmiya şəhərindən gəlmiş Araz Əlizadə isə qeyd etdi ki, Naxçıvan mətbəxini hədsiz bəyənirəm. Naxçıvanda keçirilən “Plov”, “Göycə”, “Ailə təsərrüfatı məhsulları” festivallarının da iştirakçısı olmuşam. Belə festivallar insanları bir araya toplayır, adət-ənənələrin unudulmadığını göstərir, həmçinin milli və mənəvi dəyərlərin təbliğində mühüm rol oynayır.

Sədərək rayonundan gələn ailə təsərrüfatı sahibi Mehbarə xanım hazırladıqları kətə ilə bərabər, festivala Sədərəyin məşhur çörəyi olan dəstəna da gətirmişdi. Onun dediyinə görə, bu gün bir saat ərzində 25-dən çox dəstəna satıb. O vurğuladı ki, bişirdikləri 16 növ kətəyə də maraq çox olub.

Naxçıvanda keçirilən üçüncü “Kətə” festivalına yerli əhalinin və xarici qonaqların böyük maraq göstərmələri bunu bir daha sübut etdi ki, müxtəlif növ yeməkləri ilə yanaşı, Naxçıvan mətbəxinin ləziz dadı olan kətə hər zaman sevilə-sevilə hazırlanır və yeyilir.

*Ötən iki gün ərzində buradakı qələbəlik zəngin xalq yaradıcılığımızın, milli dəyərlərimizin, bənzərsiz mətbəximizin təbliği baxımından belə festivalların təşkilinin əhəmiyyətinin çox böyük olduğunu bir daha nümayiş etdirdi.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## Qanvermə aksiyası keçirilib

***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanası Hematransfuzioloji briqadasının iştirakı ilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında 17 aprel – Hemofiliya Günü münasibətilə tədbir keçirilib.***

Səhiyyə işçilərindən və ictimaiyyətin nümayəndələrindən “Çoxlarının həyatının xilası sənin qanının təhlükəsizliyindədir” devizi altında qan götürülüb. Əvvəlcə donorlar arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərə görə müayinədən keçirilib. Bir neçə saat davam edən könüllü qanvermə aksiyasında 26 donordan götürülən 13 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda Qan bankına təhvil verilib, xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq Qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Təlim-məşq toplanışı davam edir

*Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Şərur Olimpiya-İdman Kompleksində ağır atletika idman növü üzrə Azərbaycan yığma komandasının təlim-məşq toplanışına başlanılıb.*



Ölkəmizin yeniyetmələrdən ibarət yığma komandasının məşqçiləri tərəfindən aparılan təlim-məşq toplanışında 21 idmançı iştirak edir ki, bunların da dördü – Gülcahan Əliyeva, Həsən Babayev, Nihad Ramazanov və İlkin Kərimov Naxçıvan Muxtar Respublikasından olan idmançılardır. Artıq iki gündür, davam edən təlim-məşq toplanışında məqsəd bu idman növünün kütləviliyini artırmaq, qızları da bu idman növünə cəlb etmək və iyul ayında keçiriləcək Avropa çempionatına hazırlıqdan ibarətdir.

Təlim-məşq toplanışı may ayının 3-nə qədər davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Məmmədov Çingiz Sahab oğluna məxsus Culfa rayonunun Əbrəqunus kəndində yerləşən fərdi yaşayış evinin 3461 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 270